

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

20 fevral 2020-ci il
Cümə axşamı

№ 7 (3472)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA SƏFƏRİ

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfərdə olub.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, "Veridos GmbH" şirkətinin baş icraçı katibi Andreas Reşmayerlə, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norovla, Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabahla və Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurerlə görüşüb.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolla görüşdə o, Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masadakı çıxışını çox yüksək qiymətləndirib. İcraçı direktor qeyd edib ki, Azərbaycan dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır, bu da bilavasitə Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.





Ölkəmizin rəhbəri "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə, Moldova Respublikasının Prezidenti İqor Dodonla və bir çox dövlət, hökumət və digər səlahiyyətli şəxslərlə fikir mübadiləsi aparıb.

Qeyd edək ki, fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.

Sözügedən tədbirdə birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva da iştirak ediblər.

# AZƏRBAYCAN PREZİDENTİNDƏN İŞĞALÇIYA TARİXİ DƏRS

Valday məğlubiyyətindən sonra Münxendə ikinci şoku yaşayan Paşinyan ölkəsinin deyil, həm də dünyanın gülüş hədəfinə çevrildi. Böyük siyasətdən yolu düşməyən birinin Qarabağ münaqişəsinin həllinə yönəlmiş mühüm tədbirdə fikir yürütməsi, əlbəttə ki, onun çətin duruma düşməsi ilə nəticələnəcəkdi. Danışıqlar prosesindən uzun illər kənarda qalan, Ermənistanı dilənçi vəziyyətdən çıxarmaq üçün xaricdəki lobbiyə sığınan baş nazir elə ilk raunddaca rabitəsiz danışdığı ingilis dilində işğalçı olduqlarını və bu gün üstündə dövlət qurduqları torpağın Azərbaycana məxsus olduğunu etiraf etdi. O, ümidli idi ki, yalanlarına dünyanı inandıracaq. Ancaq belə olmadı. Onun qondarma "fakt"larına Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin dünyanın bildiyi və təsdiq etdiyi həqiqətlərlə cavabı debata möhürünü vurdu.

Prezident İlham Əliyev uzun illərdir ki, Qarabağ "düyünü"nün "çözülməsi"nə çalışan, lakin ikili standartlarla Azərbaycana təzyiqlər edən güclərə də **"Azərbaycan xalqı Şuşaya və digər işğal olunmuş bölgələrə qayıtmalıdır"** mesajını ünvanladı. Bu mesajın sonunda Valdaydakından daha qüdrətli və əzəmətli Nida vardı...

Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir həqiqəti dünya gündəmini yenidən zəbt etdi. Həmin gün Münxen Azərbaycan diplomatiyasının Ön xətti, Ön cəbhəsi idi. Meydanda isə Ali Baş Komandan İlham Əliyev idi. Öz xalqına, tarixin ona verdiyi haqqa güvənərək, beləcə, işğalçıya həddini bildirən liderimizin qətiyyəti, Azərbaycan ərazisində ikinci "erməni dövləti"nin yaradılmasına barışmaz mövqeyi bizi-Azərbaycan xalqını yaxında, özü də çox yaxında olan Qələbəyə inandırdı.

Siyasət meydanında Azərbaycan qalibdir. Döyüş meydanında isə: ***"Əmrinə hazıram, Ali Baş Komandanım",- deyən Azərbaycan əsgəri düşmənə sonuncu məğlubiyyət acısını daddırmaq, Azərbaycan bayrağını işğaldan azad olunmuş torpaqlara sancmaq üçün əli tətikdə gözləyir.***

***"Mübariz keşikdə"***

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 12-də Serbiya Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Aleksandar Vuçiçə təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı fevralın 12-də Azad Sevindik oğlu Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri fevralın 13-də Litva Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Gitanas Nausedaya təbrik məktubu göndərib.***

***Fevralın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Fevralın 14-də dövlətimizin başçısı Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

***Fevralın 15-də ölkəmizin rəhbəri Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Fazil İmamverdi oğlu Nəcəfovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2020-ci il fevral ayının 29-da Şirvan şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2020-ci il fevral ayının 22-də Bərdə rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 15-də Daxili İşlər Nazirliyində polis orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirərək Bakı şəhər sakinlərindən müraciət edən 28 vətəndaş ilə görüşüb.



General-polkovnik V.Eyvazov onların polisin fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyərək, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edən şəxslər göstərilən diqqət və qayğıya, müraciətlərinə çevik reaksiyaya və həssas yanaşılmasına görə DİN rəhbərliyinə minnətdarlıq ediblər.

# İNKİŞAF, QURUCULUQ VƏ DAYANIQLI İQTİSADİYYAT

Regionların inkişafı proqramları Azərbaycanın sosial-iqtisadi həyatına yeni nəfəs gətirməklə bu istiqamətdə dövlət siyasətinin yeni müstəviyə qədəm qoymasını təmin etdi. Dünyada iqtisadi geriləmənin yaşandığı və hər bir dövlət üçün sınaq dövrü olan illərdə Azərbaycan böhrandan layiqincə çıxdı, həyata keçirilən yeni iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoydu.

Bu gün dövlət proqramlarının icrasının ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsində müstəsna rolu var.

"İqtisadi inkişafı şərtləndirən vacib məsələlərdən biri bütün sahələr üzrə müasir infrastrukturun olmasıdır və dayanıqlı inkişaf ilk növbədə infrastrukturun yeniləşməsindən keçir",-deyən möhtərəm Prezidentimiz İlham Əliyev bu sahədə inkişafı beynəlxalq standartların tətbiqində, qabaqcıl biliklərin, texnologiyaların mənimsənilməsində görür və əməli tədbirlərin həyata keçirilməsini daim önə çəkir.

Son 16 ildə Azərbaycanda 17 min kilometrə yaxın avtomobil yolu tikilib. Təkcə 2019-cu ildə ölkə üzrə 1300 kilometr avtomobil yolu salınıb ki, bu da planın artıqlaması ilə yerinə yetirilməsi deməkdir. Hazırda avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 27-ci yerdədir və bir çox inkişaf etmiş ölkələri qabaqlayır.

Ötən il 84 məktəb, 60 tibb müəssisəsi tikilib və təmir edilib, 800 meqavat elektrik enerjisi əldə olunub, 80 min hektar torpağa su verilməsi təmin edilib, 300-dən çox subartezian quyusu qazılıb. Bütün bunların hamısı regional inkişafa dair dövlət proqramı çərçivəsində qarşıya qoyulan vəzifələrdən biri olan infrastrukturun sürətlə yenilənməsindən xəbər verir.

Ötən dövrdə iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu isə dünyada rekord göstərici hesab olunur. Vətəndaşlarımızın rifah halını yüksəltmək, ölkəmizi dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaq üçün dövlət başçımızın uğurlu siyasəti, bir sözlə, gördüyü bütün işlər tarixin ən qüdrətli Azərbaycanını yaratmaq naminədir.

# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ MƏŞĞƏLƏLƏR UĞURLA DAVAM ETDİRİLİR



**Azərbaycan Respublikası Daxili İşlər nazirinin müvafiq əmrinin tələblərinə uyğun olaraq, fevralın 17-dən etibarən Daxili Qoşunların Təlim Mərkəzində Daxili İşlər Nazirliyinin Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin dinləyiciləri ilə növbəti məşğələlərin keçirilməsinə başlanılıb.**



Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı tərəfindən təsdiq edilmiş müvafiq məşğələ cədvəlinə əsasən, Daxili Qoşunların Baş İdarəsinin və Bakı qarnizonunda yerləşən "N" saylı hərbi hissənin zabitləri tərəfindən dinləyicilərlə nəzəri və praktiki məşğələlər xüsusi-taktiki, atəş, hərbi mühəndis, rabitə və hərbi tibb hazırlığı mövzuları üzrə keçirilir. Fevralın 23-dək davam edəcək məşğələlərdə əsas məqsəd dinləyicilərə daxili işlər orqanlarının istifadəsində olan xüsusi texnikanın, silahların, qurğuların və vasitələrin təyinatı, taktiki-texniki xüsusiyyətləri və istifadəetmə qaydaları barədə geniş bilgilər verməklə, onların peşəkarlıq səviyyələrinin artırılmasına nail olmaqdır.

Bundan əlavə, məşğələlər zamanı dinləyicilərə cinayət törətmiş və asayişin qrup halında pozulmasında fəal iştirak edən şəxslərin saxlanılması üsulları, silahlarla, döyüş sursatları və imitasiya vasitələri ilə davranarkən təhlükəsizlik, atışın əsasları və qaydaları, xidməti-döyüş tapşırıqları yerinə yetirilərkən partlayıcı maddənin aşkar edilməsi zamanı daxili işlər orqanları əməkdaşının fəaliyyəti və ilkin tibbi yardımın göstərilməsi qaydaları barədə ətraflı məlumat verilir.

Dinləyicilər məşğələlər zamanı qarşıya qoyulmuş bütün tapşırıqları, o cümlədən, xüsusi taktiki hazırlıq üzrə müxtəlif şəraitlərdə fərdi qaydada silah və xüsusi vasitələrin tətbiq edilməsi üzrə praktiki fəaliyyəti yerinə yetiriblər.

# ETİBARLI MÜHAFİZƏ, QƏTİYYƏTLİ MÜBARİZƏ

**Onlar üçün, sözün həqiqi mənasında, gecə ilə gündüzün fərqi yoxdur, həmişə xidmətdədirlər: mühafizə edir, cinayətkarlığa qarşı mübarizə aparır, sabitliyin, əmin-amanlığın keşiyində ayıq-sayıq dayanır, öz dərdlərini, ailə qayğılarını belə unudub insanların köməyinə çatır və onlara etibar ediləni cinayətkar qəsdlərdən qoruyurlar.**



Ərazi polis orqanları ilə əlaqəli şəkildə fəaliyyətlərini genişləndirib axtarışda olanların tutulmasında, vətəndaş-polis münasibətlərinin qarşılıqlı şəkildə formalaşmasında da əməkləri az deyil. Məhz bu işlərinə görə də onlar haqqında yazanda sözün qarşısında aciz qalmamışıq və görülən işlərin hərəsi ayrı-ayrılıqda bir yazı mövzusu kimi ərsəyə gəlib.

Günü-gündən böyüyən, gözəlləşən və yeniləşən, sovet dönəmində olduğu kimi bu gün də Azərbaycanın sənaye şəhəri statusunu qoruyub-saxlayan Sumqayıtda Şəhər Mühafizə Şöbəsinin fəaliyyətini vətəndaşlar da yüksək qiymətləndirirlər.

Müşahidələrimdən gəldiyim ilk qənaət bu oldu ki, əvvəlki illərlə müqayisədə son dövrlər xidmətin təşkili, aparılması, ona nəzarət və şəxsi heyətin bu istiqamətdəki fəaliyyəti təkmilləşib işlək bir mexanizm halını alıb.

**İdarə rəisi, polis polkovniki Sahib Vəliyevi** Növbətçi hissədə göründə, düzü, təəccüb etdim. Gün ərzində qorunan obyektlərdən daxil olan məlumatların yoxlanılması, Şəhər Polis İdarəsi ilə əlaqəli fəaliyyət barədə növbətçinin məruzəsi, xüsusi rabitə vasitələrinin sazlığına nəzarət, onların enerji ilə mütəmadi təmini və rəisin "Polisin işi Növbətçi hissədən başlayır" fikri söhbətimizə körpü oldu.

Məlum oldu ki, idarə tərəfindən dövlət və özəl mülkiyyətə məxsus 771 obyekt (109-u digər xidmət növləri) mühafizə olunur, onlardan 26 obyekt polis, 31 obyekt Mülki Mühafizə xidməti, 605 obyekt Mərkəzi Mühafizə Məntəqəsi vasitəsilə qorunur.

Görülmüş tədbirlər nəticəsində 2019-cu il ərzində 182 obyekt, o cümlədən 62 mənzil mühafizəyə qəbul edilmişdir (sentyabr ayından ilin sonunadək 59 obyekt, o cümlədən 30 mənzil). İl ərzində mühafizəyə dair yeni xidmət növlərinin göstərilməsi ilə əlaqədar bağlanmış müqavilələrin ümumi sayı 109-a çatdırılıb.

Şəhər Polis İdarəsinin əməkdaşları ilə birlikdə vətəndaşlar arasında aparılan təbliğat və maarifləndirmənin nəticəsidir ki, şəhər ərazisində qorunmayan obyekt və mənzillərin mühafizəyə qəbulu ilə bağlı daxil olmuş 68 ərizədən 31-i icraya yönəldilib.

*Ardı 3-cü səhifədə.*

# İLK QAR

Bu il ilk qar çox gecikdi. Dağlar, düzlər ağ örpəyə bürünüb könülləri oxşadı. İlk qarın sevinci qışın soyuğunu, şaxtasını da unutdurdu.

*Ulduz tək üstümə səpələnən qar,*
*Geydirdin əynimə bu soyuq donu.*
*Sənin ki, bu qədər gözəlliyin var,*
*Bağışlamaq olar soyuqluğunu* – deyən xalq şairi Musa Yaqub haqlı imiş…

Əslində qar yağanda kiçik, böyük fərq etməz hər kəsin könlü sevinclə dolur, ruhu bir ayrı havaya köklənir. Qarın, şaxtanın soyuğu bəzi problemlər yaratsa da bu uzun sürmür və sonunda bolluq, bərəkət nişanəsi kimi təskinlik tapır insan. Kiçik çillə özünü şıltaqlığı ilə təqdim edir təbiətə.

Bu il qar fevralda yağdı. Həmin il də fevral qarlı idi.

1992-ci ilin fevral ayından sonra qar yağışı biraz ayrı cür görünür mənə. Bilmirəm qar yağanda sevinim ya kədər yağmurundan qurtulum. Tarixin böyük çiləsi təbiətin kiçik çilləsi ilə müqayisəolunmazdır. Yenə xəcalət təri ilə ürəyimi ağ kağıza boşaldıram. Nə qədər faciələrimizin çiləsi ilə yaşayaq. O qarlı fevraldan sağ çıxanlar inanmıram qar yağanda sevinə. İnanmıram ki, Xocalıdan olan kimsə qarın sevincini sevinərək paylaşa. Həmin gün dağlara, dərələrə səpələnmiş soydaşlarımız kiçik çillənin soyuğundan çıxar-çıxmaz dona-dona sinələri dağlanmış şəkildə ölümdən qurtulmaq üçün uzun bir yol keçdilər. Ancaq qarlı yolların, ləpirlərin geriyə dönüşü olmadı.

Beynəlxalq təşkilatların nağılları 1988-ci ildən başlayan yurdumun qışı, xalqımın çiləsi bizim isə sülhə, barışığa olan inamımız bitmir. Qələm yazmaqdan, dil söyləməkdən, ürək qubardan yorulub. Yorulub, amma bir qığılcıma bənddir ki, alovlansın.

Bu il də sevinə bilmədim qar yağışına, yəqin ki, təbiət bağışlayar. Amma sevinəcəyik.

Bilirəm ki, qışın soyuğundan, yayın qora bişirənindən qorxmayıb Lələtəpəyə bayraq sancan Azərbaycan əsgəri bizi Xocalıya aparacaq…

*Afət Babayeva,*
*polis mayoru*

# TƏŞƏKKÜR DOLU MƏKTUBLAR

**"İşdən gəlirdim. Evə yaxınlaşanda gördüm ki, pəncərədən tüstü çıxır. Çox qorxdum və kömək üçün polisə zəng etdim. Az bir müddət ərzində polis əməkdaşları özlərini yetirdilər. Evə daxil olaraq huşunu itirmiş oğlumu oradan çıxarıb, ilkin tibbi yardım göstərib, onu ölümdən qurtardılar. Yanğını da polislər söndürdülər",-deyən Cəmilə Süleymanova Şirvan şəhər sakinidir.**

İlqar Süleymanov isə hadisəni belə xatırlayır: Evdə olan pişiyin səsinə ayıldım ki, ev yanır. Tüstüdən göz-gözü görmürdü. İstədim ki, çölə çıxım, sonrasını xatırlamıram. Ayılanda gördüm ki, çöldəyəm və polis işçisi mənə tibbi yardım göstərir. Bu gün həyatda olduğuma görə polisə borcluyam. Bir daha şahid oldum ki, polisimizə arxayın olub canımızı, malımızı, mülkümüzü ona əmanət və etibar edə bilərik.

İ.Süleymanovun həyatını Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları-polis kapitanı Abbas Rəcəbli, polis baş leytenantı Nicat Ələkbərov, polis serjantları Tural Şəmmədov və Yunis Abışov xilas ediblər.

**Bakı şəhər sakini Mais Məmmədov** minnətdarlıq məktubunda yazır: "Oğlum "İngilis" dili fənni üzrə hazırlıqdan evə qayıdarkən 3 nəfər tanımadığı şəxs tərəfindən quldurluğa məruz qalıb və telefonu əlindən alınıb. Hadisə ilə bağlı Binəqədi RPİ 5-ci Polis Bölməsinə müraciət etdim. Əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törədənlər qısa müddət ərzində saxlanıldı və telefon bizə qaytarıldı".

Əcnəbi vətəndaşlar da asayiş keşikçilərinin fədakar xidmətlərini görür və qiymətləndirirlər. Belə ki, **İran İslam Respublikası vətəndaşı Mohammad Hosein Meraji** üzləşdiyi problemlə bağlı etdiyi müraciətə həssaslıqla yanaşılaraq ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Rayon Polis İdarəsinin şəxsi heyətinə və DİN rəhbərliyinə təşəkkürünü bildirib.

**Bakı şəhər sakini Kəmalə Cəbrayılova** Əhmədli metrostansiyasında qatardan düşərkən içərisində noutbuk və başqa sənədləri olan iş çantasını unutduğu barədə orada xidmət aparan polis əməkdaşlarına müraciət edib. İşi nəzarətə götürən Metropolitendə Polis Şöbəsinin əməkdaşları tez bir zamanda çantanı taparaq K.Cəbrayılovaya qaytarıblar.

Digər bir minnətdarlıq məktubunu **Bakı şəhər sakini Faiq Yusifov** ünvanlayıb. O, yaşadığı binanın zirzəmisində fəaliyyət göstərən kafedən ətrafa yayılan səs küydən və antisanitar vəziyyətdən şikayəti olduğunu "102 Xidməti-Zəng Mərkəzi"nə deyib. Şikayətlə əlaqədar ərazi polis orqanı tərəfindən qanuni tədbir görülüb.

**Mingəçevir şəhər sakini Adil İsmayılov** qızının yaşadığı ünvanda qeydiyatı ilə bağlı üzləşdikləri problemlərin qısa zaman kəsiyində həll olunmasında göstərdikləri köməkliyə, **Qaradağ rayon sakini Aida Hüseynova** polis andına sədaqətlə xidmət etdiklərinə, vəzifə borclarının öhdəsindən layiqincə gəldiklərinə görə DİN rəhbərliyinə və sabitliyin təminatçılarına dərin minnətdarlıqlarını bildiriblər.

**Bakı şəhər sakini Oqtay Qafarov** da məktubunda oğlunun tanımadığı 4 nəfər şəxs tərəfindən bıçaqlanması ilə bağlı müraciətinə baxılaraq tez bir zamanda cinayəti törədənlərin qanuna təslim edilməsində əziyyəti olan hər kəsə minnətdarlığını ifadə edir.

Şəki şəhərinin Cəfərabad kəndi ərazisində R.Muxtarzadənin idarə etdiyi şirkətlərdən birinə məxsus "Ford" markalı avtomobil hərəkətdə olarkən "VAZ-2106" markalı avtomobillə vurulub. "Jiquli"dən düşən 3 nəfər "Ford"da sərnişin qismində olan iş adamı Cəlal Kərimova hücum çəkib, ona küt alətlə xəsarət yetiriblər. Onun içərisində küllü miqdarda pul olan çantasını aparıblar.

O, qarşılaşdığı hadisənin obyektiv və operativ şəkildə araşdırıldığına, təqsirkarların tez bir zamanda tapıldığına, cinayətkarlığa qarşı qətiyyətli mübarizəyə görə polis əməkdaşlarına minnətdarlığını bildirir.

*Natiq Cavadov,*
*Vüsal Məmmədov*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MÜSABİQƏ ELAN EDİR

## 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINDA "HÜQUQŞÜNASLIQ" VƏ "İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ" İXTİSASLARI ÜZRƏ ƏYANİ TƏHSİLƏ KURSANTLARIN QƏBULU BAŞLAYIB

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 175 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

I ixtisas qrupu üzrə "İnformasiya təhlükəsizliyi"ndən əyani təhsilə isə 25 kursantın qəbulu üçün müsabiqə elan edilir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 27-dən mart ayının 1-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10-dan 17-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-95-05.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə, qaçış 100 metr məsafəyə – 17 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə) verməli, Nazirliyin seçmə komissiyasından, habelə Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən keçməlidirlər.

Fiziki hazırlıq normativlərindən birini yerinə yetirə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyasının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2020-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" və "050615 - informasiya təhlükəsizliyi" ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

# POLİS MƏKTƏBLİLƏRLƏ GÖRÜŞÜB

**Göyçayın Çərəcə və Çərəkə kənd orta məktəblərinin şagirdləri ilə "Narkomaniyaya yox deyək", "Dini radikalizmlə mübarizə" və "Erkən nikahın fəsadları" mövzularında maarifləndirici görüş keçirilib. Görüşdə rayon İcra Hakimiyyətinin, Polis və Təhsil Şöbəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşları iştirak ediblər.**

Göyçay Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Sənan Əsədov narkotik vasitələrdən istifadənin insanlara vurduğu maddi və mənəvi zərərlərdən, cəmiyyətdə törətdiyi sosial bəlalardan danışıb. O, qeyd edib ki, gəncləri bu bəladan qorumaq, onlarda sağlam həyat tərzini formalaşdırmaq üçün birgə mübarizə aparılmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri diqqət mərkəzində saxlanılmalıdır.

Tədbirdə dini radikalizmə qarşı effektiv mübarizə metodu kimi dini maarifləndirmə işinin əhəmiyyətindən də söhbət açılıb. Natiqlər gənc nəslin dini və milli dəyərlərimiz haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərə yiyələnməsi istiqamətində həyata keçirilən dini maarifləndirmə tədbirlərinin vacibliyindən danışıblar.

Erkən nikah probleminin də həlli üçün valideynlərin maarifləndirilməsinə ehtiyac olduğu vurğulanıb.

**Cəlilabad Rayon Polis Şöbəsi tərəfindən "Narkomaniya bəşəriyyətin bəlasıdır" və "Erkən nikahlara yox deyək" mövzularında təşkil olunan növbəti görüş rayonun Privolnoye kənd 1 və 2 nömrəli tam orta məktəblərinin şagirdləri ilə keçirilib.**

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı polis orqanları tərəfindən aparılan mübarizədən və əldə olunan nəticələrdən danışan polis polkovniki Mübariz Quliyev maarifləndirmə tədbirlərinə böyük önəm verməklə, yeniyetmə və gənclərin gələcəkdə "ağ ölüm"ün pəncəsinə düşməməsi üçün polisin var qüvvəsini səfərbər etdiyini deyib.

Bildirilib ki, gələcəyin qurucuları olan məktəblilər də bu məsələdə daha həssas olmalı, zərərli vərdişlərə meyl etməməli, diqqətlərini təhsilə, idmana yönəltməlidirlər.

Şöbə rəisi həmçinin erkən nikahların qarşısının alınması istiqamətində görülən tədbirlərdən, bu cür halların sağlam cəmiyyətə vurduğu zərbələrdən də söz açıb.

Sonra çıxış edən həkim və pedaqoqlar narkomaniya və erkən nikahın səbəb olduğu fəsadlardan danışıb, polis əməkdaşları tərəfindən təhsil ocaqlarında təşkil edilən bu cür tədbirlərin əhəmiyyətini qeyd ediblər.

*Məhəmməd Rzayev,*
*Mahir Məsimov*

# MONİTORİNQ APARILIB

Mətbuat Şurasının Daxili İşlər Nazirliyi ilə birgə yaratdığı monitorinq qrupu fevralın 16-da Mərkəzi Seçki Komissiyasının önündə keçirilmiş icazəsiz aksiyada jurnalistlərin prosesi işıqlandırmalarının monitorinqini aparıb.

Monitorinq qrupunun üzvlərinə peşə vəzifələrini yerinə yetirən media təmsilçiləri tərəfindən hər hansı müraciət daxil olmayıb.

Jurnalistlər aksiyaya əsasən üzərində "PRESS" yazılmış gödəkçələrdə qatılıblar. Gödəkçəsiz jurnalistlərə də rast gəlinib. Ümumən media aksiya zamanı yaşanan gərgin anların mərkəzində tam sərbəst şəkildə öz işini görə bilib. Hər hansı maneə qeydə alınmayıb.

Bununla yanaşı, Mətbuat Şurasının monitorinq qrupu bir çox hallarda kütləvi informasiya vasitələrinin nümayəndələrinin aksiyaçılarla polis arasında yaşanmış gərgin situasiyalara daha yaxın olduqlarını müşahidə edib. Belə durumlarda həm jurnalistlərin, həm də hüquq mühafizə orqanları təmsilçilərinin peşə vəzifələrinin icrası üçün çətinlik ehtimalı yaranıb. Buna görə də jurnalistlərə oxşar vəziyyətlərdə ehtiyatlı davranmaq, öz təhlükəsizliklərini qorumaq tövsiyə edilir.

*Natiq Cavadov*

# ETİBARLI MÜHAFİZƏ, QƏTİYYƏTLİ MÜBARİZƏ

*Əvvəli 2-ci səhifədə.*

Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinin nəticəsidir ki, il ərzində 1 yanğın, mühafizə olunan obyektlərdən 4 oğurluq hadisəsinin qarşısı alınıb, bu zaman 2, digər 4 fakt üzrə cinayətlərin qarşısı alınarkən 6, ictimai qaydanı pozan 71 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilib. Hesabat dövrü ərzində mühafizə olunan obyektlərdə sayıq xidmət nəticəsində oğurluq faktı qeydə alınmayıb.

Diqqətimizə o da çatdırıldı ki, şəhər ərazisindəki bağçalar "həyacan düyməsi" vasitəsilə İdarə tərəfindən mühafizəyə cəlb olunub.

İdarə əməkdaşları talassemiya xəstələrinə dəstək məqsədi ilə keçirilmiş qanvermə aksiyasında da fəal iştirak ediblər.



Sumqayıt şəhərinin 70 illiyində ictimai qaydanın və təhlükəsizliyin təminində fərqlənmiş, idarənin kiçik inspektoru, polis baş serjantı Nəzər Fərhadov şəhər rəhbərliyinin "Fəxri fərman"ı ilə təltif edilib.

DİN və BMİ rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində İdarənin maddi-texniki bazası günü-gündən möhkəmləndirilməsi istiqamətində işlər aparılır. Şəxsi heyətin xüsusi şəraitdə xidmət aparması məqsədilə Sumqayıtdakı "N" saylı hərbi hissədə keçirilən təlim məşqlərində istifadə üçün 50 ədəd xüsusi geyim forması və BMİ tərəfindən 2 avtonəqliyyat vasitəsi ayrılaraq əməkdaşların istifadəsinə verilmişdir.




S.Vəliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirildiyini, bu məqsədlə, idarənin köməkçi inzibati binasında yerləşən idman zalının təmir olunduğunu və əlavə idman alətləri ilə təchiz edildiyini dedi.

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan əməkdaşların idarənin girişində olan xatirə lövhəsi yenilənib, ətrafına qızılgül kolları əkilib. "Onların əziz xatirələri anılır, ailələri ilə görüşlər təşkil edilir ki, sıralarımıza yeni qoşulan gənclər kimsənin unudulmadığını və yaddan çıxmadığını bilsinlər". Bunu da idarə rəisi dedi...

***"Əgər bu mundiri əynimizə geyinmişiksə, qanımızla, canımızla bağlı olduğumuz üçrəngli bayrağın altından keçib and içmişiksə, demək böyük bir məsuliyyətin altına çiyinimizi vermişik. Xalq bizə öz malını, mülkünü, haqqını, canını etibar edir. Bu etibarı doğrultmaq, şərəfli vətəndaş-polis ömrü yaşamaq və vətəndaşa təhlükədən daha yaxın olmağın özü ölçüyəgəlməz bir xoşbəxtlikdir". Bu, onların-Sumqayıt Şəhər Mühafizə İdarəsi əməkdaşlarının devizidir.***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

**F.Əliyev 12.02.2019-cu il tarixdə Biləcəri qəsəbəsində etibarnamə ilə aldığı maşını bu ilin fevralında öz adına qeydiyyata saldırmaq üçün Sumqayıt Regional Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsinə müraciət edəndə sürprizlə rastlaşıb.**

Şöbə rəisi, polis polkovnik-leytenantı Fuad Mayılov ona maşının oğurluq olduğunu deyib.

Əslində, bu kimi faktların aşkara çıxarılması, sənədlərlə işləmək bacarığı, müşahidə qabiliyyəti, nəqliyyat vasitələrinin yoxlanılması polisdən ayıq-sayıqlıq və peşəkarlıq tələb edir. Texniki baxış və ya digər məsələlərlə bağlı vətəndaşlar müraciət etdikdə nəqliyyat vasitələrinin banında, mühərrikində, rənginin tutuşdurulmasında uyğunluq, həmçinin maşının həbsdə və yaxud axtarışda olması interpol bazası vasitəsilə yoxlanılır.

Araşdırmalar zamanı müəyyən olub ki, Fərizin avtomobilinin üzərindəki mühərrikin nömrəsi sənəddə göstərilənlə uyğun gəlmir.

Maşının üzərində olan mühərrik 05.02.2019-cu il tarixində Mehdiabad qəsəbəsinin "Gənclər şəhərciyi" ndən qaçırılan və Abşeron RPİ tərəfindən axtarışda olan maşına aiddir. Sahibi isə İldırım Tağıyevdir. Hər iki maşının sənədində mühərrikin nömrə qeydi "iki" rəqəmi ilə bitdiyindən xəbərsiz olan sürücünü işbazlar aldatsa da, saxta sənəd şöbənin axtarış üzrə baş inspektoru, polis mayoru Hacı Rəbbin oğlu Hacıyevin gözündən yayınmayıb.

Həmin nəqliyyat vasitəsi ərazi polis orqanına aidiyyatı üzrə təhvil verilib. İstintaq davam edir.



# AYIQ-SAYIQLIĞIN NƏTİCƏSİ

H.Hacıyev 25.04.1978-ci ildə Naxçıvan şəhərində doğulub, atası da, babası da polis olub. Uşaqlıqdan ailəsində dəmir nizam-intizam, qanun və qanunçuluğa riayət olunduğunu görüb.

O, 1999-cu ildə DİN-in Polis Akademiyasını bitirib. Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsində sahə inspektoru kimi xidmətə başlayıb. Bir müddət sonra Yasamal RPİ-nin PPXB-nin komandir müavini, Suraxanı RPİ-nin PPXB-nin komandiri vəzifəsində xidmət edib. 2016-cı ildən Sumqayıt Regional Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsində xidmət edir.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# BEŞ FİLM, 101 MÜKAFAT




Azərbaycanlının çəkdiyi filmlər okeanın o tayında-ABŞ, Belçika, Hollandiya, Meksika, Almaniya, Kanada, Fransa, İtaliya və Hindistanda əks-səda doğurdu. Bir çox ölkənin kino xadimləri, ünlü rejissorları filmlər haqqında yüksək fikir söylədilər. Elə mətbuatımız da dünyaya səs salan həmin filmlərdən yazdı, müzakirələr aparıldı. Ancaq çoxları bu ekran əsərlərini ərsəyə gətirənin polis veteranı olduğunu ya diqqətdən qaçırdı, ya da yazmaq istəmədilər.

Cəlaləddin Qasımov təqaüddə olan polis mayorudur. Harda doğulub, hansı ali məktəbdə təhsil alıb, onu polisə nə gətirib, neçənci ildə daxili işlər orqanlarına qəbul olunub kimi məlumatlar əldə etmək istəsəniz internetdə axtarış vermək kifayət edər.

O, "27 ildən sonra", "Çingiz xanın xəzinəsi", "Tariximizin açılmayan sirləri", "Vətən uğrunda vuran ürəklər" və "Bir rəisin gündəliyi" kitablarının müəllifidir.

Ona beynəlxalq kinofestivallarında uğur gətirən isə 2018-ci ildə ekranlaşdırılan "Şollerin arxivi" filmidir. Cəlaləddin Qasımovun "Edam günü", "Nobel qardaşlarının ilk uğuru", "Stalinin qaranlıq keçmişi, "100 illik şərəfli ömür" və "Milyoner Musa Nağıyev" filmləri də dünya gündəmini zəbt edib.

Bir az da filmlər barədə. "Şollerin arxivi" və "Edam günü" filmləri Yaponiyanın ən nüfuzlu "Genre Celebration" festivalında qəbul olunub. "Edam günü" bədii filmi "Best Drama Feature" ("Ən Yaxşı Dram – Bədii") nominasiyası üzrə qaliblər sırasında yer alıb. "Şollerin arxivi" bədii filmi də adı çəkilən festivalda 3700 film arasından altı filmə verilən "Best Drama Feature" nominasiyasına layiq görülüb, Kanada Beynəlxalq Film Festivalının kubokunu qazanıb.

Süjet xətti ötən əsrin 40-cı illərində Azərbaycanda yaşamış alman mənşəli Şollerlər ailəsinin həyatı üzərində qurulmuş filmin çəkilişləri Gəncə, Göygöl, Tovuz və Bakıda aparılıb. Xalqımızın multikultural dəyərlərə sadiq qalması, Azərbaycanda yaşayan, dinindən, dilindən asılı olmayaraq hər kəsə sevgi filmin ana xəttini təşkil edir.




Film barəsində kinotənqidçi Sədaqət Kamal yazır: …"Kinomuzun 120 illiyi ərəfəsində kino ictimaiyyətinə yetərincə tanış olmayan təqaüddə olan polis mayoru Cəlaləddin Qasımovun iki filminin dünya kinofestivallarına çıxışı və qazandığı mükafatlar çox maraqlı bir fakt kimi göründü. Faktı maraqlı edən isə uzun illər polisdə xidmət etmiş şəxsin kinomuzdakı boşluğu doldurmaq üçün fəaliyyət dairəsini 360 dərəcə dəyişdirməsiydi. "Şollerin arxivi" filmini kinomuzda bir mərhələ adlandırsaq yanılmarıq. Azərbaycan-Alman dostluğunun 200 illiyinə həsr olunan bu filmi xalqımızın insanpərvər, dostluğu qardaşlıq səviyyəsində uca tutan olduğunu faktlara söykənərək təqdim edən bir sənəd kimi də qəbul etmək münasibdir"...

Yeri gəlmişkən, C.Qasımov Dünya Narkotiklərlə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan üzrə rəhbəri, Mahmud Kaşqari adına Beynəlxalq Fondun vitse-prezidentidir.

*T.Hafiz*



# YENİYETMƏ BOKSÇULARIMIZ FƏRQLƏNDİ

**Fevralın 2-dən 8-dək Boks Mərkəzində bu idman növü üzrə növbəti Azərbaycan birinciliyi keçirilib.** Yarışda ölkəmizin bütün şəhər və rayonlarını təmsil edən 48 komandadan 147 idmançı baş mükafat uğrunda mübarizə aparıb. DİN İdman Cəmiyyətinin komandası ümumi hesabda ikinci yerdə qərarlaşıb.

Komandamızı bu yarışa hazırlayan, əməkdar məşqçi Yadigar Məmmədovun yetirmələrindən Əzray Bəbirov, Murad Allahverdiyev öz çəki dərəcələrində qızıl, Cəfər Heydərli gümüş, Əsəd Ağayev, Rəşid Həsənov və Riad Nəzərov isə bürünc medallar qazanıblar.

Qeyd edək ki, təmsilçilərimizdən M.Allahverdiyev birinciliyin ən texnikalı boksçusu elan olunub.

Yarış təəssüratlarını bölüşən Y.Məmmədov bildirdi ki, qaliblər sırasında yer tutan idmançıların həm fiziki, həm də texniki bacarıqları onların gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəyinə inam yaradır.

*Z.Hüseynov,*
*polis leytenantı*

## BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Fevralın 16-da bir qrup şəxs əvvəlcədən rəsmi qaydada xəbərdar olunmalarına baxmayaraq 15:00 radələrində Mərkəzi Seçki Komissiyasının inzibati binasının önünə toplaşmağa cəhd etmişdir. Cəhdin qarşısı polis əməkdaşları tərəfindən alınmış və onlar ərazidən kənarlaşdırılmışlar. Bu zaman ciddi qanun pozuntusu qeydə alınmamış, saxlanılan və xəsarət alan olmamışdır.

# TƏMSİLÇİMİZ UĞUR QAZANDI

Fevralın 7-dən 9-dək Budapeşt şəhərində yeniyetmə və gənclərin karate üzrə 12-ci Avropa çempionatı baş tutub. 52 ölkədən 1155 idmançının qatıldığı bu mötəbər yarışda yeniyetmə və gənclərdən ibarət seçmə komandalarımız turniri 8 medalla başa vurub. Karateçilərimiz turnirdə 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar.

Gənclər arasında millimizin heyətində təmsil olunan DİN İdman Cəmiyyətinin yetirməsi Əminağa Quliyev üçün də bu yarış uğurlu olub. O, çəkisi 61 kiloqramadək olan idmançılar arasında finala qədər irəliləyərək bürünc medal qazanıb.

Ə.Quliyevi bu yarışa Cəmiyyətin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov hazırlayıb.

*H.Zeyni*

# TARİX HƏQİQƏTİ DEYİR

**1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoydu.**

Qarabağ xanlığında sosial-iqtisadi mərkəz rolunu oynayan şəhər yox idi. Pənahəli xan bu məqsədlə 1748-ci ildə Kəbirli mahalında Bayat, 1751-ci ildə isə Ağdam yaxınlığındakı Şahbulaq yaylağında Şahbulaq qalalarını tikdirdi. Lakin bu qalalar da coğrafi cəhətdən əlverişli olmadığı üçün Şuşakənddən bir qədər aralı, hündür, sıldırım dağ üstündə Şuşa qalasının inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qala Pənahabad və ya Şuşa adlandırılırdı.

1763-cü ildə Pənahəli xanın ölümündən sonra hakimiyyətə İbrahimxəlil xan gəldi. Məlikliklərə qarşı uğurlu müharibələr aparıldı. Ədəbiyyat və elm daha da inkişaf etdi. Şuşada Gövhərağa məscidi inşa olundu. Ağaməhəmməd şahın Qarabağa 1795 və 1797-ci illərdə yürüşlərindən və Rusiya-Qacar müharibələrindən sonra xanlıq zəifləməyə başladı. Şah Qacar ikinci yürüşdə Şuşa qalasını ələ keçirdi. Lakin onun Şuşada qətlə yetirilməsindən sonra İbrahimxəlil xan hakimiyyətini yenidən bərpa edə bildi.



1805-ci ildə İbrahimxəlil xan ilə Rusiya generalı Sisianovun arasında imzalanmış Kürəkçay müqaviləsinə görə Qarabağ xanlığı Rusiya imperiyasının tərkibinə keçdi. 1806-cı ildə İbrahimxəlil xanın Qacarlar ilə birləşməsindən şübhələnən mayor Lisaneviç başda olmaqla rus hərbçiləri xanı ailəsi ilə birlikdə qətlə yetirdilər. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində imzalanmış Gülüstan müqaviləsinə əsasən Qacar İranı Qarabağın Rusiya himayəsinə keçməsini rəsmən qəbul etdi.

İbrahimxəlil xanın ölümündən sonra 1806-cı ildə hakimiyyətə Mehdiqulu xan gəldi. 1805-ci ilin iyulunda, Kürəkçay müqaviləsindən sonra çar I Aleksandr tərəfindən ona general-mayor rütbəsi verildi. Mehdiqulu xan siyasi təzyiqlər üzündən 1822-ci ildə xanlığı tərk edərək İrana getdi. Bununla da Qarabağ xanlığı ləğv olundu. Mehdiqulu xan sonradan xahiş edərək 1826-cı ildə Qarabağa döndü. Lakin ona sadəcə Qarabağda yaşamaq hüququ verildi və xan vəzifəsi bərpa olunmadı. Mehdiqulu xan 1845-ci ildə vəfat etdi.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# BİRİ İTİRDİ, BİRİ TAPDI...

**Vətəndaşların polisə olan müraciətləri təkcə cinayətlərlə, şikayətlərlə bağlı deyil. Onlar həm də polisə inanır və etibar edirlər.**

Bugünlərdə DİN-in "102 Xidməti-Zəng Mərkəzi"nə müraciət edən vətəndaş Səbail rayonu ərazisində pulqabısını itirdiyini bildirib.

Müraciətlə əlaqədar Bakı şəhər sakini Nüsrət Sultanov Səbail RPİ-nin 9-cu Polis Bölməsinə dəvət edilib. O, paytaxtın Fəvvarələr meydanında içərisində bank kartları, sənədləri və 980 manatı olan pulqabısını naməlum şəraitdə itirdiyini deyib.

Polis əməkdaşları tərəfindən müvafiq tədbirlərə başlanılıb.

Həmin gün axşam saatlarında DİN-in "102 Xidməti-Zəng Mərkəzi"nə müraciət edən digər bir vətəndaş Nizami küçəsində olarkən yerdən pulqabı tapdığını və onun sahibinə qaytarılmasında ancaq polisə etibar etdiyini bildirib.

Pulqabını tapan şəxs - Lökbatan qəsəbəsində yaşayan Həsən Həsənov da 9-cu Polis Bölməsinə dəvət edilib. O, içərisində pul, bank kartları və sənədlər olan pulqabını polisə təhvil verib. Araşdırma zamanı məlum olub ki, bu, N.Sultanovun itirdiyi pulqabıdır.

Polis əməkdaşlarının iştirakı ilə həmin pulqabı sahibinə qaytarılıb.

Nüsrət Sultanov və Həsən Həsənov göstərdikləri bu köməkliyə görə polis əməkdaşlarına təşəkkürlərini bildirib, Azərbaycan polisinin etimad ünvanı olduğunu, ona güvəndiklərini qeyd ediblər.

*N.Cavadov*
*polis mayoru*

## Fevral ayının 12-dən 18-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 220 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 147 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 254, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1, borclu şəxs qismində axtarışda olan 154 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 143 fakt müəyyən edilmişdir.

# MÜTƏŞƏKKİL DƏSTƏ ZƏRƏRSİZLƏŞDİRİLİB

**Onlayn yolla narkotik vasitə və psixotrop maddələrin satışını həyata keçirən 27 nəfərdən ibarət mütəşəkkil cinayətkar dəstə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən zərərsizləşdirilib.**

Araşdırma zamanı müəyyən edilib ki, dəstəyə başçılıq edənlər İstanbulda yaşayan Azərbaycan vətəndaşları Ağayar Ağazadə və qohumu Orxan Ağayevdir. Qeyd edək ki, A.Ağazadə dəstə üzvləri arasında tanınmamaq üçün "Baba", O.Ağayev isə "Orxan XX" kod adlarından istifadə edib. Müəyyən olunub ki, dəstə üzvləri gizli pərdələyici üsullardan istifadə edərək "Baba" və "Orxan XX"-nin tapşırıqları əsasında narkotik vasitə və psixotrop maddələri Bakı şəhərinin müxtəlif yerlərində yerləşdiriblər. Sonradan şəbəkəyə daxil olan narkokuryerlər həmin yerlərin şəklini çəkib "WhatsApp"ani mesajlaşma sistemi ilə dəstə başçılarına göndəriblər. Keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində onların narkotik vasitələrin satışını həyata keçirdikləri sosial şəbəkə hesabları, aralarındakı gizli sövdələşmələrin səs yazıları da müəyyən edilib. Onlayn yolla narkotik sifariş verənlər pulu ödəmə terminalları vasitəsilə "Baba" və "Orxan XX"nin xaricdəki bank hesablarına köçürəndən sonra onlar narkotik vasitələri götürmələri üçün həmin yerlərin şəklini müştərilərə ötürüblər.

Müəyyən edilib ki, narkotik vasitələrin satışından əldə edilən külli miqdarda pul dəstənin başçısı Ağayar Ağazadənin anası Elvira Ağayevada cəmlənib. Daha sonra o, çoxsaylı bank kartlarından istifadə etməklə pul vəsaitlərini nağdlaşdıraraq həmin pulları Türkiyəyə göndərib. Mütəşəkkil cinayətkar dəstə üzvlərinin yaşadıqları mənzillərə və Bakı şəhərində narkotik vasitələrin saxlanıldığı gizli yerlərə baxış keçirilən zamanı külli miqdarda narkotik vasitə və psixotrop maddələr, müxtəlif ölkərə məxsus mobil nömrələr, xeyli sayda bank kartları və sair sübutlar aşkar olunaraq götürülüb. Dəstə üzvləri, əsasən, qara bazarda "şüşə" adı ilə tanınan, kimyəvi yolla əldə edilən metamfetaminin və digər narkotik vasitələrin satışını həyata keçiriblər.

Fakt üzrə Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Hazırda dəstə üzvləri barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işi üzrə icraat davam etməkdədir.

*Anar Qafarov,*
*polis baş leytenantı*

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.954

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik